

# Sadıq ELCANLI-70

*Hörmətli Sadıq Elcanlı!*

*Sizi - tanınmış yazıçı və publisisti 70 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edirik!*

*Siz 1956-cı il yanvarın 12-də Şabranın Surra kəndində anadan olmusunuz. 1972-ci ildə Siyəzən şəhərindəki 1 saylı məktəbi, 1974-cü ildə Bakıda Kimya-biologiya təmayüllü məktəbi əla qiymətlərlə bitirib, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmusunuz, 1978-ci ildə fərqlənmə diplomu ilə ali təhsilinizi başa vurmusunuz. 1979-80-ci illərdə Neft Daşlarında əmək fəaliyyətinə başlayıb, "Ədəbiyyat və incəsənət" qəzetində ondan artıq hekayənizi, bir qədər sonra "Ulduz" jurnalında "Sükutun sonu" povestinizi, "Azərbaycan" jurnalında "Əbədi sevginin xatirələri" romanınızı çap etdirmisiniz. Bir müddət Cəlil Məmmədquluzadə ev muzeyində elmi işçi, "Kitabsevərlər" cəmiyyətində redaktor, "Azərbaycan Televiziya və Radio Verilişləri" Dövlət Komitəsində ştatdankənar müxbir, böyük redaktor, az sonra şöbə müdiri kimi fəaliyyət göstərmisiniz. 1992-1996-cı illərdə "Azərbaycantelefilm" Yaradıcılıq Birliyinin rəhbəri - direktoru işləmisiniz. 1997-ci ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri QSC-də Televiziyanın "Ədəbiyyat və publisistika" baş redaksiyasının baş redaktoru olmusunuz. 2006-cı ildən AzTV-də "Ədəbi dram verilişləri" baş redaksiyasına rəhbərlik etmisiniz. 1992-ci ildə Respublikanın Əməkdar jurnalisti, 2009-cu ildə Naxçıvan MR Əməkdar İncəsənət Xadimi fəxri adlarına layiq görülmüsünüz. 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz. "Sirli səsin sorağı" adlı ilk kitabınız 1985-ci ildə çap olunub. 70-dən artıq telefilmin ssenari müəllifi və redaktoru olmusunuz.*

*1977-ci ildən başlayaraq müxtəlif qəzet və jurnallarda, toplu və kitablarda bədii, ədəbi-tənqidi və publisistik əsərlərinizi çap etdirirsiniz, ardıcıl jurnalist, publisist fəaliyyəti ilə məşğul olursunuz. "Sirli səsin sorağı" (1985), "Əbədi sevginin xatirələri" (1987), "Yaddaş yarası" (1991), "Qanlı Quzğun meydanı" (1994), "Mənim mövqeyim" (1999), "Sükutun sonu" (2003), "Zülmət" (2014), "Əbədiyyət karvanı" (2022) və başqa nəsr, publisistika kitablarınız çap olunub. Beynəlxalq Rəsul Rza mükafatına, "Sənətkar" medalına və başqa təltiflərə layiq görülmüsünüz.*

*Hörmətli Sadıq Elcanlı, siz 30 ildən artıq müddətdə Azərbaycan Televiziyasında baş redaktor olmusunuz, Azərbaycan ədəbiyyat və incəsənətinin, bütövlükdə milli mədəniyyətimizin layiqincə təbliğinə böyük töhfələr vermisiniz. 60-dan artıq esse, məqalə və resenziyalarda nüfuzlu elm və sənət adamlarının artıq tarixə dönən ürək sözləri bunu təsdiq edir:*

*"Sadıq Elcanlı ədəbiyyatımızda yeni bir yol başlayıb. Bu, nəsrdə mifik-fantastik istiqamətdir... Mənə belə gəlir ki, Sadıq Elcanlının, xüsusilə, "Qanlı Quzğun meydanı", "Yaddaş yarası" romanları gələcəyin əsərləridir" (professor Nizaməddin Şəmsizadənin "Milli yaddaşa qayıdış" məqaləsindən). "Sadıq Elcanlı birinci növbədə yazıçıdır, istedadlı yazıçıdır, böyük yazıçıdır, vətəndaş yazıçıdır" (akademik Tofiq Hacıyevin "Zülmət işığı" məqaləsindən). "Sükutun sonu" Azərbaycan nəsrində təzə söz deyən kitabdır. Dünya ədəbiyyatında çox gözəl nümunələri olan elmi-fantastik nəsrin milli ədəbiyyatımızda yükünü, ağırlığını çəkmək şərəfi Sadıq Elcanlının baxtına düşüb; onun "Qanlı Quzğun meydanı", "Yaddaş yarası", "Əbədi sevginin xatirələri " adlı romanları milli ədəbiyyatımızda fantastik nəsrin ilk yol açan ən uğurlu, təkrarsız nümunələridir (xalq şairi Nəbi Xəzrinin "Yazıçının hünəri" resenziyasından). Xoşbəxtlikdən belə sitatların sayını xeyli çoxaltmaq olar...*

*Hörmətli Sadıq Elcanlı!*

*Sizi - görkəmli yazıçını, fədakar publisisti, Əməkdar jurnalisti, Əməkdar İncəsənət xadimini - 70 illik şərəfli yubileyiniz münasibətilə bir daha ürəkdən təbrik edirik, sizə yaradıcılığın zirvə yollarında böyük uğurlar arzulayırıq.*

*Azərbaycan Yazıçılar Birliyi*